# Kulturoloji fikrin formalaşmasında sosial-bioloji, fəlsəfi və mədəni amillərin rolu

Müasir elmi dairələrdə kulturologiya nisbətən yeni təşəkkül tapmış elm sahəsi kimi qiymətləndirilir. Bununla belə öz predmeti baxımından kulturologiya, əslində fəlsəfə, tarix və s. kimi zəngin, əhatəli tarixə malikdir. Mahiyyət etibarilə kulturologiya bu və digər elmlərin qovşağında yerləşdiyindən onların bir çox xüsusiyyətlərini özündə əks etdirir və bir sıra hallarda bu elmləri tamamlayır [1, s.17].

Kulturologiyanın predmeti zəngin və çoxşaxəlidir. Bu isə təbiidir, çünki kulturologiyanın başlıca problem sahələrindən biri olan mədəniyyət anlayışı özü də sona qədər öyrənilməmiş, onun sərhədləri, imkan və vəzifələri tam şəkildə araşdırılmamışdır. Müasir kulturologiya mədəniyyət fenomenini tam şəkildə əhatə etməklə insan fəaliyyətinin, insan idrakının və insan tarixinin demək olar ki, bütün prioritet istiqamətlərini əhatə edir.

Aydın məsələdir ki, problemə bu cür geniş şəkildə yanaşmaqla konkret elmi nəticələrə gəlmək mümkün deyil. Əks təqdirdə kulturologiya hər şeyə və hər yerə şamil oluna, real əsasa malik olmadan «elmlər elminə» çevrilə və praktik elmi əhəmiyyətini itirə bilərdi. Ona görə də, müasir elmi təsnifatda kulturologiya anlayışının elm kimi çox əhatəli olmasını qeyd etməklə yanaşı, əksər alimlər onun bu və ya digər dərəcədə dayanıqlı konkret məzmununu, əhatə dairəsini yaratmağa çalışırlar. Bu sahədə hələlik yekdil bir rəy olmasına baxmayaraq müasir kulturologiyanın stabil sistem halına gəlməsində müəyyən razılaşmalar mövcuddur. Onların bir qismi Azərbaycan kulturologiyasının payına düşür [2, s.182].

Bəzən kulturologiyanın əhatəli elmi maraqları və bir çox sahələrə sirayət etməsi, onun yanlış olaraq fəlsəfə ilə eyniləşdirilməsinə səbəb olur. Əlbəttə, bu fikir ciddi şəkildə qəbul edilə bilməz, çünki o istər fəlsəfənin, istərsə də kulturologiyanın predmetini nəzərə almadan onları ümumiləşdirməyə cəhd göstərir. Müasir fəlsəfənin qazandığı nailiyyətlər, XX əsr fəlsəfəsinin məzmun və predmetinin müəyyən-

ləşdirilməsi, fəlsəfi əxlaq və estetika arasındakı qanunauyğunluqların işlənib hazırlanması süni ümumiləşdirmədən müvəffəqiyyətlə qaçmağa kömək edir. Ona görə də kulturologiyanın digər elm sahələri ilə müəyyən mənada identifikasiya edilməsi qlobal deyil, lokal xarakter daşıyır. Bu identifikasiya predmet və mövzu müxtəlifliyinə toxunmadan elmlərin sinergetik münasibətlərini tənzimləyir. Məsələyə bu şəkildə yanaşmaqla kulturologiyanın mahiyyətini, onun elmi məqsəd və vəzifələrini daha aydın şəkildə qavramaq mümkündür. Müxtəlif elmi məktəblərdə kulturologiyanın elmi problematikasına olan baxışlar bir-birindən seçilsələr də, ümumi meyarlar baxımından kulturologiyada bir konsentrasiya müşahidə olunmaqdadır ki, bu da ilk növbədə onun elm kimi formalaşdığından xəbər verir. Onun digər elmlərlə təmas qurması isə ümumi inkişafın təmin olunması kimi qiymətləndirilir.

1997-ci ildə Sankt-Peterburqda çap edilmiş «Kulturologiya. XX əsr» lüğətində oxuyuruq: «Kulturologiya müxtəlif elmlərin – *kulturofəlsəfənin* (*mədəniyyət fəlsəfəsinin* – kursiv bizimdir – müəl.), mədəni və sosial antropologiyanın, semantika və semiotikanın, sinergetikanın, *kulturopsixologiyanın* (*mədəniyyət psixologiyasının* – kursiv bizimdir – müəl.), mədəniyyət tarixinin, filologiyanın qovşağında formalaşır. O müxtəlif elmlərin mədəniyyətə olan baxışlarını inteqrasiya edərək onları bütöv bir sistemə salır, mədəniyyətin mahiyyəti, vəzifələri, strukturu və dinamikası haqqında cəmiyyətdə təsəvvür formalaşdırır. Kulturologiya müxtəlif dövrlərin, xalqların, konfessiyaların, silklərin mədəni konfiqurasiyasını təmin edərək müxtəlif mədəni dünyaların özünəməxsus cəhətlərini aşkarlayır və sistemləşdirir»[3, s.5]. Şübhəsiz ki, kulturologiyanın müəyyən mənada universal təsir bağışlayan mövqeyi, onun bir sıra müddəa və nəzəriyyələrlə müqayisədə alternativ xarakter daşıması yuxarıdakı elmi tərifin meydana gəlməsinə səbəb olmuşdur.

Fəlsəfi fikir tarixində bugünkü kulturologiyanın meyl etdiyi prioritet mövzu və baxışlara heç də az təsadüf edilmir. Bu isə kulturologiyanın tarixən formalaşmış ictimai-humanitar və sosial-bioloji elmlərin sələfi kimi qiymətləndirilməsinə imkan yaratmışdır. Hələ XVIII əsr fransız maarifçiliyində, XIX əsr ingilis siyasi iqtisadında və alman sosial-materializmində müasir kulturologiyaya xas olan müəyyən görüşləri əks etdirmək tendensiyası mövcud idi. Bioanaliz, sosial antropologiya, etnopsixologiya kimi bilavasitə «insani» elmlər şəcərəsi o zamankı elmlər təsnifatında biologiya ilə hələ tam birləşmədiklərindən əksər hallarda fəlsəfi-sosial təsir bağışlayır və bununla da yeni, daha mükəmməl elmi təsnifatın labüdlüyünü isbat edirdilər. Geokimya, biogeologiya, radiologiya, biosfera haqqında təlim və elmlərin əsasını qoymuş rus təbiyyatçısı və humanist-mütəfəkkiri V.İ.Vernadski (1863-1945) vaxtilə fiziki və mənəvi dəyərlər sistemini «insani» elmlər müstəvisində əlaqələndirməyə çalışmış və bununla da müasir kulturoloji təsəvvürlərin təşəkkülündə mühüm bir mərhələnin əsasını qoymuşdu. V.İ.Vernadskinin və onun ardıcıllarının işləyib hazırlamış olduqları biomədəniyyət sistemi sonralar müasir rus kulturologiya elminin əsas nəzəri mənbələrindən birinə çevrildi və onu bizdə olduğunun əksinə olaraq mədəniyyət fəlsəfəsindən daha çox bioloji və antropoloji başlanğıclarla əlaqələndirməyə başladı. Qeyd etmək yerinə düşərdi ki, müasir rus və bir sıra qərb kulturoloji baxışlarında antropoloji mədəniyyət ümumi kulturologiya haqqındaki elmi təsəvvürlərin aparıcı komponentinə çevrilmişdir.

Maraqlıdır ki, bir çox hallarda atasının yaratdığı müddəaların davamçısı və inkişaf etdiricisi kimi qiymətləndirilən Q.V.Vernadski (V.İ.Vernadskinin oğlu) bu kulturoloji dünyagörüşündə sırf bioloji-antropoloji dəst-xətti deyil, etnik-mədəni dəst-xətti başlanğıc kimi qəbul etmiş, mədəniyyətşünaslıqda etnokulturoloji baxışlara üstünlük vermişdir. Bu baxımdan Q.V.Vernadski avropasiyaçılıq nəzəriyyəsinin tərəfdarı kimi qiymətləndirilə bilər. Sosial fəlsəfə tarixində avroasiyaçılıq meylləri daha çox keçmiş sovet üsuli-idarəsinə müxalif mövqedə dayanan və mühacirətdə fəaliyyət göstərən rus intelligensiyasının aparıcı simalarının dünyagörüşünə uyğun idi. Q.V.Vernadski məhz belə simalardan olmuş, uzun müddət, xüsusilə 50-70-ci illərdə rus mühacir ictimai fikrini Qərbdə inkişaf etdirən mütəfəkkir və tədqiqatçı kimi tanınmışdı.

Q.V.Vernadskinin kulturoloji baxışlarının əsasını, deyildiyi kimi avroasiyaçılıq nəzəriyyəsi təşkil etmişdir ki, bu da rus qlobalizminin sovet dövründə Qərbdə yayılmış ənənəvi formalarından biri, daha dəqiq desək, birincisi idi. Nəzəriyyənin adı Avropa və Asiya qitələrinin adından götürülmüşdü və hər şeydən əvvəl böyükdövlətçilik prinsiplərini ifadə edirdi. Avroasiyaçılıq nəzəriyyəsinin bir çox ardıcılları bu məsələyə rus millətçi baxışlarından deyil, geniş transmilli mövqedən yanaşmağa çalışırdı və bunu rus böyük



dövlətçiliyi kimi deyil, Avropa və Asiya xalqlarının etnik birliyinin təcəssümü kimi təqdim edirdi. Avroasiyaçılığın sosial-fəlsəfi istiqamətini dövlət yaradılması prosesinin ritmikliyi, müəyyən dövrdən bir hakim etnosların birbirini əvəz etməsi haqqında müddəalar təşkil edirdi ki, bu da skif-hun-monqol-rus-SSRİ əvəzlənməsində öz tarixi-praktiki ifadəsini tapırdı. Bu dəst-xətti işləməklə Q.V.Vernadski hakim etnosun yaşama siklliyini, bu siklliyin dövriliyini, ritmik qanunauyğunluqlara tabe olması fikrini ortaya atmış və keçmiş sovet dövlətini həmin dövriliyin növbəti mərhələsi kimi qiymətləndirmişdi. Sonralar mədəniyyət tarixi və fəlsəfəsində dəfələrlə işlənmiş olan bu nəzəriyyə bir çox tədqiqatçıların (misal üçün L.N.Qumilyovun) əsərlərində hər dəfə yeni-yeni etnosların mədəniyyət tarixinin öyrənilməsi formasında təkrarlanmışdır.

Bu baxımdan qədim türk etnosunun tarixi-mədəni konsepsiyası məsələləri L.N. Qumilyovun görüşlərində mühüm yer tutmuşdur. O Artamonov, Baskakov və bir sıra digər rus tədqiqatçıları ilə birlikdə rus ictimai elmində türk xalqları mədəniyyət fəlsəfəsini şərh etmiş olan alimlərdəndir. Bu və digər alimlərin əməyi tarix, şərqşünaslıq, incəsənət tarixi və digər elm sahələri ilə yanaşı, XX ə. rus mədəniyyətşünaslığı fikrini də əsaslı surətdə zənginləşdirmişdir. Təsadüfi deyildir ki, müasir rus mədəniyyətşünaslığında Artamonov-Qumilyov konsepsiyası həlledici elmi metodlardan biri olmaqla yanaşı, həm də ənənəvi avroasiyaçılıq nəzəriyyəsinə yeni müddəalar daxil etmişdir. Bu müddəaların əsasını köçəri türk mədəniyyəti və onun tarixi əhəmiyyəti mövzusu təşkil edir.

XX əsrdə kulturologiyanın müstəqil elm kimi formalaşması fəlsəfi konsepsiyaya malik olan, lakin fəlsəfədən problematikasının maddi mədəniyyət elementləri ilə zəngin olması baxımından seçilən universal biliklər sistemi yaradılmasının zəruriliyi ilə də izah edilə bilər. Bəzən bu vəzifənin bir qədər mücərrəd, dumanlı şəkildə başa düşülməsi, kulturologiyanın predmetinin nisbətən konkret mahiyyətinin təyin edilməsinə zərər yetirir və nəticədə onun elmi əhəmiyyətinin zəruriliyi digər elmlərin məşğul olduğu problemlər müstəvisində itib-batırdı. Ona görə də inkişafa başladığı ilk dövrlərdən etibarən kulturologiyanın sərhədlərinin, elmi probleminin, predmetinin, başlıcası isə, fəlsəfə, əxlaq, estetika, incəsənət, sosiologiya ilə münasibətlərinin dəqiqləşdirilməsi elmdə prioritet problematikalardan biri olmuşdur. Bu problematikanın və onun ayrı-ayrı istiqamətlərinin sistemli şəkildə öyrənilməsi kulturologiyanın ümumi simulakr mövqeyindən çıxarılması baxımından olduqca əhəmiyyətlidir. Bu elmi proses, ayrı-ayrı cəhdlərin nəzdində Qərb ictimai-humanitar elmlər sistemində başlanmış və sonralar – 80-ci illərin sonu – 90-cu illərin əvvəllərində rus postsovet elminə keçmişdi. Kulturologiyanın dinamik surətdə inkişaf etməsi, kulturoloji dərslik və lüğətlərin intensiv surətdə nəşr olunması prosesi də məhz həmin dövrə aiddir. Bu dövrün nəzəri xarakter daşıyan əsərlərində kulturologiyanın predmeti və elmi fəaliyyət diapazonu əsas götürülürdü. Bu zaman əsas mənbə kimi elmi təsəvvürlərlə yanaşı, mədəniyyət tarixinin ümumi inkişaf dəst-xətti də nəzərdən keçirilirdi. Bu cür tendensiyalar kulturologiyanı ayrıca elm müstəvisinə çıxarmaqla yanaşı, həm də bir sıra kulturoloji məktəblərdə (o cümlədən Azərbaycanda) onun «mədəniyyət fəlsəfəsi» reputasiyasını xeyli gücləndirdi [4]. Təsadüfi deyildir ki, bioetnik amilin üstünlük təşkil etdiyi Qərb (son dövrlərdə isə həm də rus) kulturologiyasından fərqli olaraq, Azərbaycanda ümumi kulturologiya anlayışı daha çox incəsənətin ayrı-ayrı növlərinin «cəmlənməsi» kimi başa düşülür və çox zaman məhz həmin kontekstdə işıqlandırılır.

Vaxtilə S.Y.Levit yazırdı: «Əsrlər boyunca mədəniyyət anlayışı incəsənət, elm və maarifin nailiyyətlərinin birliyi kimi qiymətləndirilmişdir. Bu «yüksək» mədəniyyət ümumiləşdirilmiş bədii obrazlar və elmi ideyalar zəminində dayanaraq empirik həqiqət üzərində ucalmışdır»[3, s.6]. Levitin bu qeydi kulturologiyada incəsənət elementinin rolunu düzgün qiymətləndirməyə yardım edir. Levit kulturologiyanın (bilavasitə mədəniyyətin) bazisində incəsənətə yalnız üç yerdən birini ayırmışdır, lakin incəsənətin həm də tarixən əhəmiyyətli maarifçi mövqedən çıxış etməsini və elmi biliklər tərəfindən öyrənilməsini nəzərə alsaq, «incəsənət amili»nin rolunun müəyyən mənada aparıcı mövqeyə malik olduğunu hiss etmək olar. Bu qənaət həm də belə bir cəhətlə möhkəmlənir ki, Levit incəsənət məfhumunu üçlüyün əvvəlinə daxil etmiş, onu elm və maarifdən əvvəl yerləşdirmişdir. Buradan da onun incəsənəti mədəniyyətə «daha yaxın» hesab etməsi dəst-

xətti özünü aydın büruzə verir.

Digər tərəfdən əksər tədqiqatçılar, o cümlədən S.Y.Levit və bəzi Qərb nəzəriyyəçiləri incəsənəti nəinki kulturologiya ilə eyniləşdirməmişdir, hətta onun rolunun yalnız elm və maariflə birləşdikdə əhəmiyyətli olduğunu yazmışdır. Bu isə kulturologiyanın tərkib hissələrinin təşkil olunması prosesində incəsənətin rolunun əhəmiyyətli olduğunu göstərməklə yanaşı, onun heç də «yeganə» komponent olmadığını açıq-aydın bildirir.

Zənnimizcə, kulturologiyaya olan çoxsaylı baxışlar və münasibətlər sistemini nəzərdən keçirərək aşağıdakı sadə tərifi məqbul hesab etmək mümkündür: «Kulturologiya insan və cəmiyyət haqqında sosial və humanitar biliklərin qovşağında yerləşən, mədəniyyəti insan mövcudiyyətinin vahid sistemi, spesifik funksiyası və modeli kimi qəbul edən, öyrənən elmdir». «Kulturologiya. XX əsr» lüğətində ona məhz belə tərif verilir. Məhz bu kontekstdə kulturologiyanın bütün dolğunluğunu kifayət qədər sadə və əhatəli şəkildə təsəvvür etmək mümkündür. Bu tərif kulturologiyaya olan müxtəlif baxışları təmin edə bilmə xüsusiyyəti baxımından da məqbul sayıla bilər. Bu tərif Azərbaycan kulturologiyasını da tam şəkildə ifadə etmək imkanlarına malikdir və onun məşğul olduğu problematikaya cavab verir.

Kulturologiyanın müstəqil elm kimi inkişafa başlaması XX əsrə aiddir. Doğrudur, öz mahiyyəti və predmeti etibarilə kulturologiya bəşər tarixinin bütün mərhələlərində əslində mövcud olmuşdur. Çünki kulturologiyanın məşğul olduğu ayrı-ayrı sahələr – incəsənət, gözəllik, əxlaq, cəmiyyət bəşəriyyətin mövcudluğunun bütün mərhələlərində onu düşündürən mühüm, qlobal mövzulardan olmuşdur [5, s.39]. Bununla belə, elmdə təsbit olunduğu kimi, kulturologiyanın ayrıca elm müstəvisinə gətirilməsi səyləri tanınmış Amerika antropoloqu Lesli A.Uaytın adı ilə bağlıdır. Kulturologiya məfhumunun incəsənət nəzəriyyəçisi, yaxud filosof tərəfindən deyil, daha çox bioloji xarakter daşıyan elmin nümayəndəsi tərəfindən ərsəyə gətirilməsi Qərb kulturologiyasında sosial antropoloji və bioloji başlanğıcının üstün mövqeyə malik olmasının əsasını qoymuşdur ki, bu proses bu gün də davam və inkişaf edir.

Lesli A.Uayt kulturologiya anlayışı vasitəsilə daha çox cəmiyyət və təbiətin maddi və mənəvi zəmində gerçəkləşən dialektikasını ifadə etmək istəmişdir. Kulturologiya anlayışının bu cür qlobal və birbaşa formada sistemləşdirilməsi, Azərbaycan kulturologiyası üçün bir qədər gözlənilməz və qeyri-spesifik təsir bağışlayır. Bununla belə antropoloji (etnik) başlanğıc Qərb kulturologiyası üçün elə əvvəldən səciyyəvi olmuş, estetik mahiyyət isə buraya yalnız sonralar daxil edilmişdir. Beləliklə, dünya miqyasında kulturoloji fikrin evolyusiya dəstxəttini aşağıdakı şəkildə nizamlamaq olar; o Qərb sosial-humanitar mühitində formalaşmış və ictimai-siyasi (həm də mədəni) dünyagörüşünün təsiri nəticəsində Şərqdə yeni, estetik çalarlar kəsb etmişdir.

Hazırda ümumdünya kulturologiyasının inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün daha çox innovasiya xarakteri daşıyan Qərb modelini (birinci pillə), bu modelə yaxınlaşmaqda olan rus postsovet modelini (ikinci pillə; bu pilləyə Şərqi Avropa, Pribaltika kimi regionları da daxil etmək olar) və bədii-estetik amili əsas komponent kimi qəbul edən Şərq modelini (Azərbaycan kulturologiyasının müasir inkişaf tendenstiyası onu əsasən bu kateqoriyaya daxil etməyə əsas verir) ayırd etmək mümkündür. Həmin modellərin bir-birinə olan münasibəti isə heç də birmənalı şəkildə qarşılanmır. Onlara həm ümumi inkişafın ayrı-ayrı mərhələləri (bu zaman Azərbaycan kulturologiyası üçüncü modeldə təcəssüm olunur) kimi, həm də müasir dünyada kulturologiyaya olan üç prinsipial baxışın müstəqil təzahür formaları kimi baxmaq olar. Bu sahədə nə Azərbaycanda, nə də xarici ölkələrdə nisbətən sabit xarakter daşıyan nəzəriyyə formalaşmadığından müəyyən bir sistem, yaxud təsnifat yaratmaq, onu ümumi şəkildə qəbul etmək hələlik mümkün deyildir. Bununla belə söyləmək lazımdır ki, əsasən müstəqillik illərində formalaşmış olan Azərbaycan kulturologiyası milli-mədəni sərvətlərimiz zəminində inkişaf edərək dünya mədəniyyətşünaslığına inteqrasiya edir və bu baxımdan onun problematikasının özünəməxsusluğu (Qərb kulturologiyasından prinsipial fərqləri) ümumi inkişafın mərhələli olması kimi qəbul edilə bilər.

***Aludə Zeynalova,***
**sənətşünaslıq namizədi**

***Ədəbiyyat***

*1. Tətbiqi kulturologiya (Dərslik) Bakı, 2004, -411 s.*

*2. Мамедов Ф.Т. Культурология. Баку, 2002, 534 с.*

*3. Культурология. XX век. Санкт-Петербург, 1997, 630 с.*

*4. Şükürov A.M. Kulturologiya (Dərslik) Bakı, 1998, 285 s.*

*5. Учебный курс по культурологии. Ростов на-Дону, 1996, 576 с.*